# 2022-ci ilin noyabr ayı üzrə nəticələr

## İSTEHLAKÇI HÜQUQLARI VƏ VƏTƏNDAŞ MÜRACİƏTLƏRİ

2022-ci il noyabr ayı üzrə istehlakçıların hüquqlarının qorunması, abonentlərin elektrikvə istilik enerjisi,təbii qazla təchizatı və digər məsələlərlə bağlı Agentliyə bilavasitə və Energetika Nazirliyindən 472 müraciət daxil olub.

Bunlardan:

Elektrik enerjisi təchizatı ilə bağlı 35-i məlumat üçün olmaqla cəmi 389 müraciət;

Təbii qaz təchizatı ilə bağlı 7-i məlumat üçün olmaqla cəmi 58 müraciət;

İstilik təchizatı ilə bağlı 1-i məlumat üçün olmaqla cəmi 19 müraciət;

6 müraciət isə digərməsələlərlə bağlı olub.

472 müraciətdən:

176 müraciət Agentlik tərəfindən araşdırılıb və cavablandırılıb (2 müraciət müvafiq qaydada baxılması və tədbir görülməsi üçün aidiyyəti qurumlara göndərilib);

1 müraciət Energetika Nazirliyi ilə müştərək icraolunub;

252 müraciət hazırda baxılma prosesindədir;

43 məlumat xarakterli müraciətdən 13-ü qaldırılan problemlərin həlli ilə bağlı təşəkkür məktubu olub.

## ELEKTRİK ENERJİSİ TƏCHİZATI VƏ QAZ TƏCHİZATI

Yeni, yenidən qurulan, istifadə olunmasına icazə verilmiş gücü artırılan və enerjitəchizat sxemini dəyişən 18 tikinti obyektinin xarici elektrik enerjisi təchizatı üçün quraşdırılmış elektrik qurğularına istismara buraxılış aktı verilib;

51 razılaşdırılmış layihəyə əsasən tikintisi başa çatdırılmış sənaye qaz qurğularının istismarına icazə verilib;

“Azərenerji” ASC və “Azərişıq” ASC-nin nümayəndələrinin iştirakı ilə 10 hesablaşma elektrik sayğacının texniki vəziyyətinə baxış keçirilib;

Agentliyin səlahiyyətlərinə aid olan Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri üzrə 9 inzibati xəta haqqında işə baxılıb və müvafiq qərarlar çıxarılıb;

“Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində fəaliyyət göstərən müəssisələrinin payız-qış mövsümünə hazırlığının monitorinqi Qaydaları”nın tələblərinə uyğun elektrik qurğularının texniki istismarı, təhlükəsizlik

texnikası qaydalarına əməl olunması və elektrik enerjisindən istifadə vəziyyətinin araşdırılması məqsədilə 76 nəzarət tədbiri və qazdan səmərəli istifadənin, “Qazdan istifadə Qaydaları”nın və qaz qurğularının etibarlı istismarının, həmçinin digər normativ hüquqi aktların tələblərinə əməl olunması vəziyyətinin araşdırılması məqsədi ilə 61 nəzarət tədbiri keçirilib.

## PEŞƏ BİLİKLƏRİNİN YOXLANILMASI

Agentlik tərəfindən hesabat dövrü ərzində 21 müəssisədə 46 nəfər olmaqla elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin texniki istismar, təhlükəsizlik texnikası qaydaları üzrə peşə bilikləri yoxlanılıb, yoxlama nəticəsində biliklərin artırılması üzrə təkliflər verilib, bu istiqamətdə müvafiq şəxslərə metodiki yardım göstərilib.

## TEXNİKİ ŞURALAR

15 “ASAN xidmət", 3 “ASAN Kommunal” mərkəzi və 3 KOB evində (Kiçik və orta biznes evləri) fəaliyyət göstərən Texniki Şuralara sahibkarlıq obyektlərinin elektrik şəbəkəsinə qoşulması ilə bağlı daxil olan 413 müraciət qəbul edilərək icra edilib.